UOT 94 (479.24)

# SƏFƏVİLƏR DÖVRÜNDƏ DÖVLƏT BÜDCƏSİNİN MƏXARİCİ

**N.M.SÜLEYMANOV**
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***suleymanovnizami@mail.ru***

*Məqalədə Səfəvi dövlətinin mərkəzi və yerli idarə orqanlarında işləyənləri, ordunun müxtəlif rütbəli hərbçilərini maddi cəhətdən təmin etmək üçün lazım olan külli miqdarda maliyyə vəsaitinin müxtəlif qaynaqlardan vergilər, rüsumlar şəklində toplanaraq Divan əl-məmalikin maliyyə idarəsində qeydiyyata alındıqdan sonra sərf edilməsi, mərkəzi və yerli məmurların, hərbçilərin məvaciblərinin miqdarı və ödənmə qaydaları dövrü mənbələr və səyyah gündəlikləri əsasında araşdırılmışdır.*

**Açar sözlər:** səfəvi, idarə orqanları, ordu. hərbçilər, məmurlar, maliyyə, vergilər, rüsumlar, mənbələr, məvacib

Səfəvi dövlətinin mərkəzi və yerli idarə orqanlarında işləyən məmurlar vəzifə dərəcələri üzrə büdcədən, yaxud onunla bağlı olan müxtəlif qaynaqlardan maliyyələşdirilirdilər. Qulluq adamları soyurqal, tiyul, həmesale, yeksale və ulkalardan xidmət müqabilində müxtəlif formada təmin olunurdular. Qulluqda olan məmur ona verilmiş tiyuldan fərmanda nəzərdə tutulan qərara uyğun olaraq məvacibini birbaşa mahaldakı təhsuldardan alırdı. Eyni zamanda bəzi qulluq adamları məvacibini büdcədən alırdılar. Hər iki halda onlara məvaciblərinin həddi göstərilməklə illik barat (qəbz) verilirdi. Onlar məvacibi həmin barat əsasında alırdılar. Mürəkkəb idarə strukturuna malik olan dövlətin məmurlarının təminatı ilə bağlı məsələlər haqqında Şardenin «Səyahətnamə»sində, Mirzə Rəfia və Mirzə Səmianın əsərlərində daha ətraflı məlumat verilmişdir [1, 2]. Qeyd olunan müəlliflərin əsərlərindəki faktiki materialların müqayisəli təhlilini aparmadan dövlətin mülki-inzibati, hərbi strukturlarında çalışan qulluqçuların maddi təminatları haqqında aydın təsəvvür əldə etmək mümkün deyildir.

Səfəvi imperatorluğunun dövlət idarəetmə orqanlarının məmurlarını, ordunun müxtəlif rütbəli hərbçilərini maddi cəhətdən təmin etmək üçün lazım olan külli miqdarda maliyyə vəsaiti müxtəlif qaynaqlardan vergilər, rüsumlar şəklində toplanılır və divan əl-məmalikin maliyyə idarəsində qeydiyyata alındıqdan sonra sərf edilirdi. Divan üçün yığılan torpaq və başqa vergilər

qeydiyata alındıqdan sonra məmurlara tiyul kimi verilirdi. Vəzifəyə əlavə olaraq şahın fərmanı ilə ömürlük və ya müvəqqəti verilmiş tiyul tiyuldar vəzifədən çıxarıldıqda, başqa işə keçdikdə və ya öldükdə geri alınaraq başqasına verilirdi. Digər tərəfdən, şah istədiyi vaxt tiyuldarı bu hüquqdan məhrum edə bilərdi. Həm də tiyul sahiblərinin tiyulu satmaq, bağışlamaq hüququ yox idi, yeni şah hakimiyyətə gəldikdə isə onun fərmanı ilə tiyuldarların tiyullar üzərindəki sahiblik və məvacib almaq hüquqları yenidən təsdiq olunmalı idi [3, 162; 4, 45-46]. Faktiki olaraq tiyul vəzifəyə təhkim olunmaqla, məmura onun gəlirindən xidmət dövrü üçün məvacib almaq hüququ verirdi. Yüksək rütbəli məmurlara verilən tiyul torpaqlarının sahəsi onlara təyin olunan məvaciblə müəyyən edilirdi. Tiyulundan məvacib almaq səlahiyyəti olan məmurun məvacibindən kəsir qalardısa, ona əlavə torpaq sahəsi verilir və yaxud çox olduqda artığını dövlətə qaytarırdı.

Kiçik rütbəli məmurlara və hərbçilərə verilən tiyulların gəliri xassə dəftərxanasında, yaxud da məmalik dəftərxanasında qeydiyyata alınmaqla, xəzinəyə daxil olur və onların məvacibləri buradan pulla ödənilirdi.

Dövlət torpaqlarını idarə edən vilayət və mahal hakimlərinə də tiyullar verilirdi. Vilayət və mahallardan gələn gəlirin bir hissəsini yerli hakimlər öz şəxsi xərclərinə, digər hissəsini isə yerlərdəki qoşunun məmur və xidmətçilərinin saxlanılmasına sərf edirdilər.

Tiyuldan əldə olunan gəlirin digər hissəsi yerli hakimin ixtiyarına verilirdi və bu məbləğ üzərində sərəncam vermək onun səlahiyyətində idi. Əyalət hakimləri həmin gəlirin bir hissəsini yerli idarəçilik orqanlarının maddi tələbatının ödənilməsinə xərcləyirdilər və bu da dövlət büdcəsini həmin işlərə vəsait ayırmaqdan azad edirdi.

Tiyuldarlar sahib olduqları tiyul daxilində ölkədəki mövcud qanunları pozmadan istədikləri qərarı (ağır cəza istisna olmaqla) qəbul etmək hüququna malik idilər. Tiyulu tiyuldar özünün şəxsi əmlakı hesab edirdi, tiyulun idarə olunmasında və rəiyyətlə rəftarda sərbəst idi.

Əyalətlərə təyin edilmiş hakimlər əyalət tərkibindəki şəhərlərin də hakimi hesab olunurdular. Həmin şəhərlərdən gələn gəlirlər də onlara çatırdı. Əyalətin hakimi olan xan həmin gəlirin müqabilində 2 min hərbi qüvvə saxlamalı, öz sarayında işləyən qulluqçuları maaşla və ərzaqla təmin etməli, onlar üçün nəzərdə tutulan digər xərcləri ödəməli idi.

Tavernyeyə görə, əyalətin ərazisinə daxil olan digər şəhərlər, qəsəbələr, yaşayış məntəqələri də əyalət hakiminə və xanlara ulka şəklində verilirdi ki, həmin məntəqələrdən vergi yığmaq hüququ da hakimə məxsus idi [5, 594-595].

Köçəri və yarımköçəri tayfalara dolanışıqları üçün verilən yaylaq, qışlaq, əkin yeri, bütöv mahallar tayfa əmirləri tərəfindən idarə olunurdu. Ancaq əmirlərə bu torpaqları alıb-satmaq hüququ verilmirdi. Dolanışıq üçün verilmiş bu torpaqlar ulka (ölkə) adlanırdı. Ulka daxilində mövcud olan idarəçilik orqanlarının bütün məmurlarının təminatı ulkadan toplanılmış vergilər və gəlirlər hesabına ödənilirdi. Ulkadan əldə edilən gəlir ulka sahibinə çatır, ondan

vergi və digər mükəlləfiyyətlər alınmırdı. I Şah Abbasın bu barədə 1587-ci ildə Səfi Əhməd Şeyx Çobanlının Müğanda olan ulkası haqqında verdiyi fərmanda deyilirdi: "Hakimlər, tiyuldarlar, daruqələr, kələntərlər və divanın məmurları adı çəkilən ulkadan heç bir vergi almasınlar» [6, sənəd №14, 155].

Mənbələrlə tanışlıq göstərir ki, dövlət torpaqlarına daxil olan vilayətlər, əyalətlər, şəhərlər və digər yaşayış məntəqələri böyük miqdarda illik gəlir əldə edirdilər. Onun bir hissəsi mərkəzləşdirilmiş qaydada vergilər şəklində dövlət büdcəsinə daxil olur, digər hissəsi əyalət hakimlərinin və digər vəzifə sahiblərinin sərəncamında qalırdı. Engelbert Kempferin qeyd etdiyi kimi, xan başçılıq etdiyi vilayətin vergiləri hesabına yerli məmurları, vilayət ərazisindəki dövlət qoşununu və öz alayının əsgərlərini təmin edirdi. Kempferə görə, şahın göstərişi ilə xan bəzən başqa bölgədə yerləşən sərbazlara da muzd verirdi. Dövlətin ən böyük vilayətlərindən biri olan Azərbaycan hakiminin illik gəliri 30 min tümən, İrəvan xanının illik gəliri 20 min tümən, Qarabağ hakiminin gəliri 28.614 tümən və Şirvan hakiminin illik gəliri 35.542 tümən idi. E.Kempfer vilayət hakimləri olan xanların illik gəlirlərinin 7-8 min tümənə qədər olduğunu qeyd etmişdir [7, 160-161].

Əyalətin gəlirlərinin əsasını təşkil edən qaynaqlar hakimlər tərəfindən daimi nəzarətdə saxlanılır və onların qeydiyyatı aparılırdı. Onlar vergi yığanları özləri təyin edir və vergilərin miqdarını sərbəst surətdə müəyyənləşdirirdilər. Vergi toplamazdan əvvəl əyalətdə yaşayan kişilərin sayı müəyyən edilir, atların, öküzlərin, inəklərin, camışların, eşşəklərin, ev quşlarının, üzümlüklərin, dəyirmanların və sənətkarlıq təşkilatlarının siyahısı tərtib olunaraq vergilər müəyyənləşdirilir və divan dəftərində qeydə alınırdı. Əyalət hakimlərinin maliyyə fəaliyyəti daimi olaraq mərkəzi maliyyə idarələrinin nəzarətində idi. Əyalətin gəlirinin əsas mənbələri divanın xüsusi reyestrində (dəftərində) qeydə alınırdı. Əyalətin büdcəsində cəmlənmiş maliyyə vəsaiti xərclərinin əsas göstəriciləri və təyinatı divani-məmalik tərəfindən müəyyənləşdirilirdi ki, əyalət hakimləri büdcə vəsaitini xərcləyərkən bu göstərişə əməl etməli idilər.

Beləliklə, dövlət torpaqlarına daxil olan əyalətlərdən, vilayətlərdən, şəhərlərdən və digər yaşayış məntəqələrindən yığılan vergilər nəticəsində əldə olunmuş gəlir əyalətlərin büdcəsinə daxil olur və həmin vəsaitdən şahın xeyrinə vergi (rüsum) tutulduqdan sonra, yerdə qalan vəsaitin bir hissəsi mərkəzi dövlət aparatında işləyən məmurlara divandan alınmış barat müqabilində maaş kimi verilir, yerli idarəçilik orqanlarında işləyən məmurlara rəsm əl-vəzarə, rəsm əl-mustoufi, rəsmi-daruqə, rəsmi-kələntəri şəklində ödənilirdi. Yerdə qalan vəsait əyalətdə olan ordunun saxlanmasına, yerli hakimlərin xərclərinin ödənilməsinə, əyalətlərin, şəhərlərin, qəsəbələrin abadlaşdırılmasına sərf olunurdu.

**Baş vəzir**. Şarden «Səyahətnamə» əsərində Səfəvi dövlətinin maliyyə sistemi haqqında məlumat verərək yazırdı ki, baş vəzirin illik maaşı 863 tüməndir. Sanson isə baş vəzirin gəlirinin Fransa pulu ilə 540 min livr (*12 min tümən*) olduğunu yazmışdır [8, 44]. Ancaq Mirzə Səmia yazır ki, baş vəzirə dövlət büdcəsindən nağd məvacib müəyyən olunmamışdı. Onun illik məvacibi

mahallardan yığılan rəsm əl-vüzarə, digər rüsumlar və həmesale ənamları hesabına müəyyənləşdirilirdi. Müəllif baş vəzirin maliyyə qaynaqları haqqında yazır ki, mahallardan 803 tümən 3000 dinardan bir az artıq rəsm əl-vüzarə adlı nağd pul vergisi yığılır və ona verilirdi. Ancaq bu məbləğdən 7 tümən 1000 dinarının yarısı məhsulla ödənilirdi. Eyni zamanda həqq ül-qərara görə icarələrdən 500 dinar, tiyullardan 330 dinar, həmesalelərdən 220 dinar, əmirlərin və istefada olan təqaüdçülərin ənamlarından, soyurqal məvaciblərindən 714 dinar da baş vəzirə çatırdı [1, 52-53].

Mirzə Rəfia isə yazır ki, baş vəzirə xəzinədən qələm, mürəkkəb, xüsusi paltar verilir və novruz bayramında 1000 ədəd əşrəfi və 12 baş atla təmin edilirdi. Mirzə Rəfia sonra göstərir ki, faktiki olaraq o, tutduğu vəzifəyə görə məvaciblə deyil, xüsusi cirə və rəsm əl-vüzarə aldı rüsumla maliyyələşdirilir, həm də qərara əsasən ənam alırdı [2, 77-78].

**Sədr**. Şarden ali ruhani idarəsinin başçısı olan Sədr-ammə və onun naibi olan Sədr-xassənin təminatı ilə bağlı məlumatlarında onların hər birinin qazancının 1000 *tümən* olduğunu göstərmişdir. Səyyaha görə, onların gəlirləri 6000 *ekü* idi [9, 1343]. Mirzə Səmia isə sədrlərin təminatı haqqında yazır ki, soyurqallardan, bəzi mahalların vəqf əmlakına nəzarət və tovliyyət (qəyyumluq) haqqı olaraq bu əmlakın gəlirlərinin onda biri onlara verilirdi. Müəllif Mirzə Əbutalıb adlı şəxsin sədr vəzifəsində çalışdığı zaman 1360 *tümən* məvacib aldığını və qərarla həmesale sahibi də olduğunu qeyd etmişdir [1, 53].

Mirzə Rəfia yazır ki, Sədr-xassə və ammənin kifayət qədər geniş hüquq və səlahiyyəti vardır. Onlar hətta pişnamazların, xətiblərin, müəzzinlərin, qəssalların, qəbirqazanların işlərinə nəzarət edir, cinayət hadisələrindən bədən yaralama, diş sındırma və buna uyğun məsələlərə də baxırdılar. Sədr-xassə şənbə, yekşənbə və sədr-məmalek (ammə) isə çaharşənbə, pəncşənbə günləri yüksək məqamlı divanbəyi ilə sarayda müəyyən məsələlərə baxırdılar. Soyurqalların üşurunun (onda birinin) yarısını və bəzi vəqf edənlərin şərtlərinə müvafiq olaraq mütəvəllilik və nəzarət haqqı da alırdılar. Sədr-xassə Mirzə Əbutalıbdan başqa heç bir kimsə yaşayışına yardım adı ilə əhalidən pul almamışdı. Mirzə Səmia kimi Mirzə Rəfa da yazır ki, sədr-xassə Mirzə Əbutalıb 1360 tümən maaş alırdı [2, 64-68].

**Mütəvəlli**. Mirzə Rəfia yazır ki, Məşhəddəki imam Rza məqbərəsinə mütəvəlli başçılıq edirdi. Bu məqbərənin gəlirləri vəqf mahalından və imperiyanın başqa bölgələrindən toplanılırdı. Məqbərənin illik gəliri ölkənin uzaq vilayət və mahallarından, Hindistandan gələn nəzirlərdən başqa təxminən 14000 xalvar cins mal və 3000 tümən nağd pula çatırdı. Ümumi gəlirin üşuru (onda biri) mütəvəllinin haqqı idi. Şahlar tərəfindən hər il 300 tümən məbləğində nağd və 300 man sarı mum, kafur, xeyli ənbər və bir ədəd qiymətli xalı isə ədalət naminə mütəvəlliyə və yaxud onun naibinə göndərilirdi. Keçmiş Səfəvi hökmdarları dövründə mollabaşı vəzifəsi olmamışdır. Lakin Şah Sultan Hüseynin hakimiyyəti zamanı bu bir vəzifə olaraq Məhəmməd Bağır adlı şəxsə tapşırılmışdır. Xeyirxahlıq məqsədi ilə toplanmış pullar ona verilirdi. O

bu pulları ehtiyacı olan adamlara çatdırırdı. Onun dolanışıq haqqı və vəzifə məvacibi 200 *tümən* təbrizi idi.

İsfahan Şeyxülislamına tutduğu vəzifəyə görə hər il xəzinədən 200 tümən məvacib müəyyən olunmuşdu [192]. İsfahan qazısının da illik məvacibi 200 tümən idi. Qazi Əsgər üçün isə bir qayda olaraq əsgərlərdən tümənə bir dinar tutulmalı idi [2, 72].

**Divanbəyi**. «Təzkirət əl-müluk»da divanbəyinin illik məvacibinin 500 tümən olduğu göstərilmişdir. Mənbədə tiyul gəlirlərindən divanbəyiyə əlavə olaraq 92 tümən 3845 dinar da verildiyi qeyd olunmuşdur. Birlikdə onun məvacibi 592 tümən 3845 dinar idi. Müxtəlif cinayət hadisələri zamanı tutulan cərimələrin onda biri də ona çatırdı. Bəzən onun ümumi gəliri 1000 tümən olurdu [1, 55].

**Əmirşikarbaşı**. «Təzkirət əl-müluk»da onun illik məvacibinin 800 tümən olduğu göstərilmişdir. Bundan əlavə əmir şikarbaşının tiyulu və başqa gəlirləri də vardır. Onun ümumi gəliri aşağıda qeyd olunan miqdarda idi [1, 55].

**Biyutat naziri.** Mirzə Səmianın yazdığına görə, biyutat nazirinin 306 tümən 1000 dinar illik məvacibi ona verilmiş tiyul və həmasaledən qərara uyğun qaydada müəyyən edilmiş rüsumlardan ibarət idi. Belə ki, sahibi-toucihin (tədiyyələrin, təxsisatların adi qeydiyyatı, ödənilməsi, yaxud yerinə çatdırılması ilə birbaşa məşğul olan idarənin başçısı) yazmış olduğu qayda üzrə gərəkyaraqların hazırladıqları məmulatlardan hər tümənə 220 dinar alınırdı ki, onun 100 dinarı nazirə verilirdi. Bazarlardan alınan malların qiymətinin iyirmidə biri alınıb cəmləndikdən sonra əldə olan pulun hər tüməninddən də 500 dinar rüsum ödənirdi. Bü rüsumun 50 dinarı nazirə çatırdı. Biyutat müşrifinin təsdiq etdiyi sənədə uyğun aşağıda qeyd olunan rüsumlar da alınır, nazirin məvacibinə daxil olurdu [1, 55-56].

- əsgərlərə nağd verilən məvacib və rüsumun hər tümənindən 316 dinar 4 danq;
- əsgərlərə məvacib əvəzinə barat üzrə verilən məhsulun iyirmidə birindən tutulan onda bir;
- vəzir və digər məmurların əlavə gəlirlərinin yüzdə biri, ənamlarının onda biri, peşkəşlərinin onda biri.

Mirzə Rəfia isə qeyd edir ki, biyutat nazirinin məvacibi sabit deyil, bəzən 700, bəzən də 1500 tümən olurdu.

**Naziri-dəvvab (mal-qara, heyvanat)**. Naziri-dəvvabın illik məvacibi 150 tümən idi.

**Dəftərxana naziri**. Dəftərxanaya rəhbərlik və nəzarət edən nazirin məvacibi 225 tümən 6800 dinar olub, müxtəlif rüsumlardan alınıb ödənilirdi. «Təzkirət əl-müluk»da verilən məlumatda «qədim qayda, qərar əsasında» nazirin məvacibinin qaynaqları göstərilmişdir.

Qeyd olunan mənbədə göstərilir ki, son illərdə qəbul olunmuş qərara görə, məvaciblərin hər tümənindən 50 dinar, yeksale və həmesale tənxahlarından isə hər tümənə 20 dinar tutulub, nazirin məvacibinə daxil edilirdi [1, 56-57].

## ƏDƏBİYYAT

1. Mirzə Səmia. Təzkirət əl-müluk. Be küşeşe doktor Seyid Məhəmməd Dəbirsiyaği. Tehran: Enteşarate Əmir Kəbir, h. 1368, 140 s.
2. Mirzə Rəfia. Dəstur əl-müluk. Be kuşeşe Məhəmmədtağı Daneşpəteh. Məcəlle-ye daneşkəde-ye ədəbiyyat və ulumeinsani. Tehran, 1347, № 65-66, 67, s. 62-93; 298-322.
3. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI — начале XIX вв. Ленинград: ЛГУ, 1949, 379 с.
4. Minorski V. Sazmane edare-yi hökuməte Səfəvi-ya təeğate Minorski bər тəзкirət əl-müluk. Tərcome-ye Məsud Rəcəbniya. Tehran: Enteşarate Əmir Kəbir, h. 1368, 340 s.
5. Səfərname-ye Tavernye. Tərcome-ye Əbuturab Nuri. İsfahan: Çapxane-ye Pərvin, h. 1336, 719 s.
6. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilli sənədlər (XVI - XVII əsrlər). Bakı: Elm, 1977, 237 s.
7. Engelbert Kempfer. Dər dərbare şahənşahe İran. Tərcome-ye Keykavus Cahandari, Tehran: Enteşarate Danişqah, h. 1350, 312 s.
8. Səfərname-ye Sanson. Veze keşvəre Şahənşahi-ye İran dər zəmane Şah Süleyman Səfəvi. Be ehteman və tərcome-ye doktor Təfəzzüli. Tehran, h. 1346, 237 s.
9. Şarden. Səfərname-ye Şarden. Tərcome-ye Eğbal Yəğmai, c. I-V, Tehran: Çapxane-ye Heydəri, h. 1372-1374, IVc., 1308-1656 s.
10. Səfərname-ye Şarden. III c., s.1125.


## РАСХОДЫ ГОСУДАРСТВЕННОГО БЮДЖЕТА В СЕФЕВИДСКОЕ ВРЕМЯ


### Н.М.СУЛЕЙМАНОВ



### РЕЗЮМЕ

В статье анализируется, что для обеспечения центральных и местных органов управления Сефевидского государства и ряды вооруженных сил нужны крупные финансовые средства. Взимаемых в виде налогов и пошлинных из различных источников средства сдавались в казну Диван-аль Мамалик. Только после регистрации реализовались необходимые финансовые дела. Размер военных нужд и условия выплаты заработной платы проанализированы на основе существующих источников и дневников путешественника.



**Ключевые слова:** Сафави, органы управления, армия, военные, чиновники, финансы, налоги, пошлины, источники ресурсов, заработная плата


## THE BUDGET EXPENDITURES OF THE SAFAVIS STATE


### N.M.SULEYMANOV



### SUMMARY

The article notes that large financial budget was required for the provision of central and local governmental organs and militants of the Safavis state. The collected duties and taxes were submitted to Divan-al-Mamalik. The volume of military needs and conditions of payment of Safavis are analyzed on the basis of existing sources and travellers’ diaries.



**Key words:** Safavis, managing authorities, army, soldiers, officials, finance, taxes, duties, resources, salary